# Xalqın seçimi 20 ilin reallıqlarına əsaslanacaq

## Prezident seçkiləri Azərbaycanda demokratiyanın növbəti təntənəsi olacaq

Seçkilər mühüm siyasi hadisə sayıldığından Prezident İlham Əliyevin növbədənkənar seçkilərin keçirilməsi barədə sərəncamı ölkəmizdə böyük maraqla qarşılandı. Lakin nə vaxt keçirilməsindən asılı olmayaraq Azərbaycan seçicilərinin mütləq əksəriyyəti öz seçimini hələ illər öncədən edib.

7



# Quruсu rəhbər, global lider, müzəffər komandan

# Xalqın seçimi 20 ilin reallıqlarına əsaslanacaq

## Prezident seçkiləri Azərbaycanda demokratiyanın növbəti təntənəsi olacaq



**Seçkilər demokratik cəmiyyətlərdə hakimiyyətin formalaşdırılmasında və dövlətin idarə edilməsində vətəndaşların iştirak formasıdır.**

Həm də siyasi bir hadisə olan prosesin nəticəsində cəmiyyət idarəçiliyi və hakimiyyətin qollarını etimad göstərdiyi siyasi qüvvəyə və ya şəxsə etibar edir. Seçkilərin ədalətli və şəffaf olması isə cəmiyyətdəki demokratik mühitdən xəbər verir.

### Hər bir seçki demokratik inkişafın təcəssümü kimi yadda qalıb

Respublikamız mühüm siyasi hadisə olan prezident seçkilərinə hazırlaşır. Prezident İlham Əliyevin sərəncamı ilə növbədənkənar keçiriləcək prezident seçkiləri gələn il fevral ayının 7-yə təyin olunub. Artıq Mərkəzi Seçki Komissiyası növbədənkənar prezident seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planını təsdiq edib.

Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi dekabrın 19-dan başlayır və 2024-cü il yanvarın 8-dək davam edəcək. Seçkiqabağı təşviqatın aparılması isə 2024-cü il yanvarın 15-i başlayacaq və fevralın 6-sı saat 8:00-da dayandırılacaq.

Azərbaycanda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər təcrübə və zəngin ənənə mövcuddur. Bu ənənənin əsasının qoyulmasının tarixi 30 il əvvələ gedib çıxır. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrildi. Həmin ildən isə respublikamızda vüsət alan demokratik inkişafın tərkib hissəsi kimi seçki sistemi də ildən-ilə təkmilləşdirildi.

1993-cü ildən indiyə kimi respublikamızda 6 prezident, 6 parlament, 5 bələdiyyə seçkisi keçirilib. Ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə əlavə və təkrar seçkilər də təyin olunub. Hər bir seçki Azərbaycanın demokratiya yolu ilə inkişafının, cəmiyyətdə demokratik dəyərlərin bərqərar olmasının təcəssümü kimi yadda qalıb.

### Azərbaycanın ən sürətli və yüksək inkişaf dövrü

Seçkilər mühüm siyasi hadisə sayıldığından Prezident İlham Əliyevin növbədənkənar seçkilərin keçirilməsi barədə sərəncamı ölkəmizdə böyük maraqla qarşılandı. Lakin nə vaxt keçirilməsindən asılı olmayaraq Azərbaycan seçicilərinin mütləq əksəriyyəti öz seçimini hələ illər öncədən edib.

20 il əvvəl İlham Əliyevə etimad göstərən xalqımız bununla Heydər Əliyevin ideyalarının davamına, ölkəmizin təhlükəsizliyinə və inkişafına səs vermişdi. Aradan ötən dövr xalqımızın bu və növbəti prezident seçkilərindəki seçiminin nə qədər müdrik olduğunu göstərir. Bu 20 il Azərbaycanın dövlətçilik tarixinin ən sürətli, ən yüksək inkişaf və yüksəliş dövrü kimi tariximizə yazılıb. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasının nəticəsi olaraq Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Bu dövrdə ümumi daxili məhsul 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-in real həcmi 4 dəfə artıb. Adambaşına ÜDM 769 ABŞ dollarından 7798 ABŞ dollarına yüksəlib. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb. Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib. İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb. Qeyri-neft ixracı 0,26 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına yüksəlib. Xarici ticarətin profisiti 0,5 milyard ABŞ dollarından 23,6 milyard ABŞ dollarına çatıb. 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb.

Ümumiyyətlə, İlham Əliyev Azərbaycanın inkişafı ilə bağlı bütün təşəbbüsləri reallığa çevirib. "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi strateji layihələr məhz Prezident İlham Əliyevin siyasi iradəsi ilə reallaşıb və bütün bunların nəticəsi kimi Azərbaycan regionun lider dövlətinə çevrilib.

### Tariximizin qürurverici hadisələrinin müəllifi

Prezident İlham Əliyevin Azərbaycan tarixindəki ən böyük uğurları isə torpaqlarımızın işğaldan azad edilməsi və Qarabağda erməni separatizminə son qoyulmasıdır. Dövlətimizin başçısı özünün qətiyyəti, iradəsi və əzmi ilə tək Ermənistanı deyil, dünya erməniliyini məğlub etdi. Çünki Azərbaycan torpaqlarının işğalında maraqlı olan yalnız Ermənistan deyildi. Başda Fransa olmaqla bir sıra Qərb siyasi dairələri Azərbaycan torpaqlarının işğalına dolayı yollarla dəstək veriblər. 44 günlük müharibənin ölkəmizin qələbəsi ilə başa çatmasından sonra bu amil öz təsdiqini tapdı. Beləliklə, Prezident İlham Əliyevin xalqımıza qazandırdığı zəfər həm də Azərbaycanın dünya erməniliyi üzərində tarixi qələbəsinə çevrildi.

Bu ilin sentyabrında Prezident İlham Əliyev torpaqlarımızdakı erməni separatizmini məhv etdi. Məlum olduğu kimi, Azərbaycan torpaqlarında erməni separatizmi 19-cu əsrin birinci yarısından başlamış və xalqımıza bir çox faciələr yaşatmışdı. Müzəffər Ali Baş Komandan kimi İlham Əliyev 200 illik erməni məkrini də tarixin arxivinə göndərdi.

Beləliklə, Prezident İlham Əliyev seçkilərə möhtəşəm nailiyyətlərlə, tariximizin ən qürurverici hadisələrinin müəllifi kimi gedir. Azərbaycan xalqının da seçimi və iradəsi məhz ötən 20 ilin reallıqlarına, qürur doğuran uğurlarına əsaslanacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*